*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    16 fevral 2019-cu il   № 13 (2330)    Qiyməti 30 qəpik


# Azərbaycan Prezidenti Beyləqan rayonu ərazisində yeni inşa edilmiş hərbi hissədə yaradılan şəraitlə tanış olub



*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev fevralın 13-də Müdafiə Nazirliyinin Beyləqan rayonu ərazisində yeni inşa edilmiş "N" hərbi hissəsində yaradılan şəraitlə tanış olub.*

AZƏRTAC xəbər verir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdilər.

Azərbaycanın iqtisadi inkişafı Silahlı Qüvvələrin də müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Təbii ki, güclü ordunun yaradılması həm də güclü hərbi-sənaye kompleksinin mövcudluğu ilə şərtlənir. Bu məsələyə vaxtında lazımi diqqət göstərən Prezident İlham Əliyevin rəhbərliyi ilə 2005-ci ildə ölkədə müdafiə sənayesinin əsasının qoyulması və bu sahədə istehsalyönümlü müəssisələrin fəaliyyətə başlaması Azərbaycan Ordusunun maddi-texniki bazasını daha da gücləndirib. 2019-cu ildə Prezident İlham Əliyevin Müdafiə Sənayesi Nazirliyinin əsasında "Azərsilah" ASC-nin yaradılması ilə bağlı imzaladığı Fərman da Silahlı Qüvvələrin müasir tələblərə cavab verən müdafiə təyinatlı məhsullarla təmin olunmasında əhəmiyyətli rol oynayacaq. Ölkədə hərbi xərclərin artırılması hərbçilərin sosial vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub. Son illərdə hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi sahəsində sistemli tədbirlər görülüb. Hərbi qulluqçuların rütbə və vəzifə maaşları artırılıb, onlar üçün paytaxtda və bölgələrdə xidməti yaşayış binaları tikilib. İndi Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır. Bunu beynəlxalq hərbi tədqiqat mərkəzlərinin hesabatları da təsdiqləyir. Bu nəticəyə isə hərbi potensialın gücləndirilməsi, qoşun birləşmələrinin döyüş hazırlığının müasir standartlar səviyyəsində qurulması sayəsində nail olunub. İndiyə qədər ordunun döyüş qabiliyyətinin daha da artırılması, əməliyyat işləri üzrə hazırlığın gücləndirilməsi, idarəetmənin təkmilləşdirilməsi ilə bağlı birlik və birləşmələrin xeyli sayda komanda-qərargah təlimi keçirilib. Bu təlimlərə Silahlı Qüvvələrin müxtəlif qoşun birləşmələri cəlb olunub. Ordumuzun gücünü son illərdə keçirilən hərbi paradlarda nümayiş etdirilən canlı qüvvə və hərbi texnikadan da görmək olur.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Prezidenti Beyləqan rayonu ərazisində yeni inşa edilmiş hərbi hissədə yaradılan şəraitlə tanış olub



(Əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısına məlumat verildi ki, 13 hektar ərazidə yerləşən hərbi hissənin inşasına 2017-ci ildən başlanılıb. Artıq tikintinin birinci mərhələsi başa çatdırılıb. Hazırda ikinci mərhələ üzrə işlər davam etdirilir. Hərbi şəhərcikdə inzibati, xidməti, yaşayış, texniki binalar inşa olunub, qurğular yerləşdirilib. Ərazidə şəxsi heyətin uzunmüddətli yerləşdirilməsi məqsədilə yataq, məişət və xidməti sahələrdən ibarət əsgər yataqxanaları tikilib. Ailəli hərbi qulluqçuların yerləşdirilməsi üçün birmərtəbəli dörd xidməti yaşayış binasında 32-si üçotaqlı, 16-sı ikiotaqlı olmaqla, 48 mənzilin tikintisi davam etdirilir. Təntənəli mərasimlər, qoşunların sıra təlimləri, düzülüşlər, şəxsi heyətin sıra baxışı, döyüş və fiziki hazırlıq, eləcə də digər tədbirlərin keçirilməsi üçün sıra meydanı da salınıb.

Prezident, Ali Baş Komandan İlham Əliyev burada silahlanmaya yeni qəbul edilən hərbi texnika ilə tanış oldu. Yaylım atəşli reaktiv sistem SMERÇ kompleksi reaktiv mərmilər atmaqla nüvə hücum vasitələrinə, cəmləşmə rayonlarında, marşda və döyüş düzülüşündə tank, motoatıcı, artilleriya və raket bölmələrinə, enmə meydançalarında helikopter bölmələrinə, mövqelərdə raket və hava hücumundan müdafiə bölmələrinə, idarəetmə məntəqələrinə təlefat vermək üçün təyin olunub. 122 millimetrlik yaylım atəşli reaktiv sistem BM-21 cəmləşmə rayonlarında düşmənin canlı qüvvəsini və döyüş texnikasını, atəş mövqeyində artilleriya və minaatan batareyalarını məhv etmək və susdurmaq, düşmənin istehkam, dayaq məntəqəsi və müqavimət mərkəzlərini dağıtmaq üçün təyin edilib. 220 millimetrlik TOS-1A ağır odatan sistemi T-90 tankının şassisi üzərində quraşdırılan reaktiv qurğudur. O, idarə olunmayan reaktiv mərmilərin daşınması, saxlanması, hədəfə tuşlanması və düşmənin taqım dayaq məntəqəsi tipli ərazi hədəflərini, həmlə edən bölük, artilleriya və minaatan batareyalarının atəş mövqelərini, marşda olan avtomobil kolonlarının məhv edilməsi üçün təyin olunub. 152 millimetrlik 2A36 topu düşmənin taktiki raket vasitələrini, uzaqvuran artilleriya bölmələrini məhv etmək və susdurmaq, düşmənin canlı qüvvəsini, atəş vasitələrini, marş zamanı döyüş texnikalarını, cəmləşmə rayonlarını, müdafiə məntəqələrini məhv etmək və susdurmaq, düşmənin arxa cəbhəsini və idarəetmə məntəqələrini təlefata uğratmaq üçün təyin edilib. 130 millimetrlik M46 topu düşmənin artilleriyasını, minaatanlarını, cəmləşmə rayonlarında yerləşən texnikasını və canlı qüvvəsini, arxa xidmət məntəqələrini və ordunun idarəetmə bölmələrini məhv etmək, səhra və uzunmüddətli müdafiə qurğularını dağıtmaq üçün təyin olunub. 120 millimetrlik "Nizə" minaatanı düşmənin yüksəkliklərdə, yamaclarda, təpələrin arxasında yerləşən canlı qüvvəsini, döyüş texnikasını məhv etmək və motoatıcı bölmələrin atəş dəstəyini təmin etmək üçün nəzərdə tutulub. Bu kompleks lazertuşlayıcı və avtomatik idarəetmə sistemi ilə yüksək dəqiqliklə qısa zamanda hədəfləri məhv etməyə qadirdir. "Nizə" döyüş maşını yolsuzluq şəraitində yüksək manevr imkanlarına malik olub, heyətin qorunmasını və təhlükəsizliyini təmin edir. Tank əleyhinə idarə olunan raket kompleksi "Xrizantema-S" sutkanın istənilən vaxtında, hava şəraitindən asılı olmayaraq hərəkət edən və etməyən yerüstü və hava hədəflərini məhv etmək üçün nəzərdə tutulub. Tank əleyhinə raket kompleksi "SPİKE-LR" düşmənin 200 metrdən 4 min metrədək məsafədə hərəkət edən və hərəkətsiz tank və zirehli texnikalarını, canlı qüvvələrini məhv etmək üçün təyin olunub. Kompleks yüngül çöl müdafiə qurğularına, binalara, alçaqdan uçan helikopterlərə də dəqiq atəş açmaq imkanı yaradır. Həmçinin kompleksdən kəşfiyyat xarakterli əməliyyatlarda da istifadə etmək mümkündür. "SPİKE-ER" qurğusu isə döyüş maşını üzərində quraşdırılan, müxtəlif relyef şəraitinə uyğunlaşan, 400 metrdən 8 min metrədək, gündüz, gecə və məhdud görmə şəraitlərində düşmən tanklarını, PDM, zirehli texnikalarını, aşağı yüksəklikdə uçan hava hədəflərini məhv etmək üçün raket buraxıcı sistemdir. "Orbiter-2B" pilotsuz uçuş aparatı döyüş əməliyyatlarında tətbiq etmək, hava kəşfiyyatını aparmaq, eləcə də istənilən şəraitdə hədəfgöstərmə və artilleriya atəşinə xidmət etmək üçün təyin olunub. Universal radiolokasiya kompleksi düşmənin atəş açan taktiki raketlərinin, reaktiv qurğularının, haubitsaları və minaatanlarının kəşfiyyatını aparmağa və öz artilleriya bölmələrimizin atışına xidmət etmək üçün təyin edilib. "R-010SC" komanda-qərargah maşını əməliyyat idarəetmə səviyyələrində tətbiq olunmaqla, hərəkətdə və dayanacaqda qərargah zabitlərinin idarəetməsini təmin etmək üçün nəzərdə tutulub. "R-010SC" radioidarəetmə məntəqəsi isə analoq və rəqəmsal açıq, məxfi, sinxron tezlik dəyişən, həmçinin bütün növ məlumatların kompüter vasitəsilə ötürülməsi və qəbulu üçün nəzərdə tutulub.



Şəxsi heyətə ixtisaslı tibbi yardımın göstərilməsi məqsədilə ərazidə xüsusi tibbi avadanlıqla təchiz edilmiş tibb məntəqəsi, qarovul məntəqəsi, yemək zalından, yeməkbişirmə, ərzaq və təsərrüfat otaqlarından, ərzaq və soyuducu anbarlardan ibarət yeməkxana binası inşa olunub. Ərazidə gündəlik 720 kiloqram paltar yumaq, qurutmaq və ütüləmək imkanına malik hamamxana-camaşırxana-qazanxana kompleksi yaradılıb. Hərbi hissədə avtomobil və xüsusi texnikanın yerləşdirilməsi üçün park da salınıb.



Prezident İlham Əliyev daha sonra yeməkxanada yaradılan şəraitlə maraqlandı, hərbi hissənin şəxsi heyəti ilə birlikdə nahar etdi.

Bütün bunlar göstərir ki, orduda aparılan islahatlar öz bəhrəsini verir. Döyüş hazırlığının yüksək tələblərə cavab verən səviyyəyə çatdırılmasını prioritet vəzifə kimi müəyyənləşdirən Prezident İlham Əliyev təmas xəttində yerləşən bölgələrimizə mütəmadi səfərlər edir. Ali Baş Komandanın əsgərlərimizlə keçirdiyi görüşlər onları Vətəni qorumağa, işğal altındakı torpaqlarımız uğrunda hər an savaşa qalxmağa ruhlandırır. Bununla da güclü ordu potensialımız bizi əsas məqsədimizə, işğal edilən torpaqlarımızın azad olunmasına daha da yaxınlaşdırır. Bunun nəticəsidir ki, qəhrəman hərbçilərimizin uğurlu əks-hücum əməliyyatı nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsi 2016-cı ildə azad olunub. Füzuli rayonu istiqamətində yerləşən və geniş ərazini nəzarətdə saxlamağa imkan verən strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi azad edilib. Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Ermənistan silahlı birləşmələrinin işğalı altında olan Günnüt kəndinin 26 ildən sonra ordumuzun nəzarəti altına keçməsi nəticəsində Xunut dağı və Ağbulaq yüksəkliyi, Qızılqaya dağı və Mehridağ işğaldan azad edilib, ümumilikdə 11 min hektara yaxın ərazi nəzarət altına alınıb. Bu da göstərir ki, peşəkar ordusu olan xalqın müstəqilliyi əbədidir və bu ordunun gücünün əsasında xalqına, dövlətinə sədaqət və Vətən sevgisi durur.

# Müdafiə naziri Rusiyanın hərbi attaşesi ilə görüşüb

*Fevralın 15-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə fəaliyyət müddəti başa çatan Rusiya Federasiyasının Silahlı Qüvvələrinin hərbi attaşesi polkovnik İqor Lobastov ilə görüşüb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə ölkələrimiz arasında hərbi, hərbi texniki, hərbi təhsil sahələrində əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub, ikitərəfli əlaqələrin inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin regionda təhlükəsizliyin təmin edilməsi üçün vacibliyi qeyd edilib.

Bundan əlavə, görüşdə Rusiya istehsalı olan müasir, yüksək dəqiqlikli döyüş texnikası, silah və digər hərbi təyinatlı vasitələrin ordumuzun silahlanmasına daxil edilməsi, bu sahədə fəaliyyətlərin hər iki dövlətin qarşılıqlı anlaşma və razılığı əsasında daha da genişləndirilməsi və davamlılığı məsələləri müzakirə olunub.

Görüşdə iki ölkənin birgə hərbi təlimlərinin keçirilməsi, qarşılıqlı səfərlərin, işçi görüşlərinin təşkili, ekspertlər səviyyəsində təcrübə mübadiləsinin aparılması, Rusiyanın hərbi məktəblərində azərbaycanlı kursant və mütəxəssislərin hazırlanması məsələlərinə də diqqət yetirilib.

Səmimi qəbula görə minnətdarlığını bildirən hərbi attaşe ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayıb.

# Azərbaycan Respublikasının Müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının İstanbul şəhərinin Çəkməköy səmtində hərbi helikopterin qəzaya uğraması ilə əlaqədar Türkiyənin Milli Müdafiə naziri cənab Hulusi Akara və Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerə başsağlığı ünvanlayıb.

Başsağlığında bildirilir: "Qardaş Türkiyə Respublikasının İstanbul şəhərinin Çəkməköy səmtində hərbi helikopterin qəzaya uğraması nəticəsində hərbi qulluqçuların həlak olması və xəsarət alması haqqında xəbər məni dərindən kədərləndirdi.

Sizin acınız bizim də acımızdır.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm.

Allah rəhmət eləsin".

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**15 fevral 2019-cu il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı və Bala Cəfərli kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Şıxlar, Sarıcalı, Yusifcanlı kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# HHQ-nin hərbi hissəsində təntənəli mərasim keçirilib

*Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsinin 27-ci ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Polkovnik Elşad Pənahov Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirovun adından şəxsi heyəti əlamətdar gün münasibəti ilə təbrik edərək onlara xidmətlərində uğurlar arzulayıb.

Polkovnik Elşad Pənahov təntənəli mərasimdə çıxışında dövlət rəhbərliyinin Azərbaycan Ordusuna, o cümlədən HHQ-nə göstərilən diqqət və qayğısı sayəsində şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, aviabazaların maddi-texniki təminatının gücləndirilməsi, uçuş və texniki heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb.



Daha sonra çıxış edənlər ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən islahatları qeyd edərək hərbi pilotlarımızın torpaqlarımız uğrunda gedən döyüşlərdə göstərdikləri qəhrəmanlıq və şücaət nümunələrini xatırlayıblar.

Tədbir Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı kollektivinin konsert proqramı ilə sona çatıb.

# Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçirilib

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, fevralın 13-də Goranboy rayonu ərazisində yerləşən Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Oqnyen Yoviç keçiriblər.

# "Qarabağ tarixi Azərbaycan torpağıdır"

*Dağlıq Qarabağ münaqişəsində haqlı tərəf Azərbaycandır. Bunu tarixi faktlar sübut edir. Qarabağ tarixi Azərbaycan torpağıdır. Biz ölkəmizə qayıtdıqdan sonra qəzetlərimizdə Qarabağın işğalı barədə mütləq yazacağıq.*

Bu sözləri Livan və Amerika Birləşmiş Ştatlarında çap olunan "Cedarnyus" qəzetinin baş redaktoru Michel Al Zubeydi Qusarda AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində söyləyib.

İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının dəstəyi ilə Azərbaycana gələn Qətər və Livanın bir sıra KİV əməkdaşlarından ibarət qrupun tərkibində yer alan Michel Al Zubeydi Azərbaycanın turizm imkanlarını yüksək qiymətləndirib.

"Biz Azərbaycanda bir sıra görüşlər keçirdik. Dövlət Turizm Agentliyində də olmuşuq. Azərbaycanda başqa ölkələrdə rast gəlmədiyimiz bir çox maraqlı məkanlar var. Turistlər axtardıqları zəngin təbiəti, tarixi məkanları burada tapa bilər. Bizim də vəzifəmiz bu məkanlar barədə oxucularımızı məlumatlandırmaqdır", - deyə "Cedarnyus" qəzetinin baş redaktoru Michel Al Zubeydi bildirib.

AZƏRBAYCAN ORDUSU

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Bu gün Azərbaycan həm danışıqlar masasında, həm də döyüş meydanında üstün mövqedədir

*Fevralın 12-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Real televiziyasına geniş müsahibə verib. Müsahibədə bir çox məsələlərə toxunan ölkə başçısı ordu quruculuğu prosesinə və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də münasibət bildirib.*



"Bilirsiniz, mən Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişəm. Bir daha demək istəyirəm ki, tam əminəm, əgər müstəqilliyimizin ilk illərində Heydər Əliyev Azərbaycan Prezidenti olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşməzdi. Tam əminliklə bunu deyirəm. Əfsuslar olsun ki, o vaxt Azərbaycana rəhbərlik etmiş şəxslər öz məsuliyyətini dərk edə, ölkəmizin maraqlarını qoruya bilməmişlər. Xüsusilə 1992-ci ildə baş vermiş çevriliş nəticəsində hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü və onun xəyanətkar siyasəti işğalı şərtləndirən əsas amil olmuşdur. O vaxt hakimiyyət uğrunda mübarizə gedirdi və çevriliş ərəfəsində Şuşa, Laçın işğal altına düşmüşdü. Çevrilişdən bir il keçmədən - 1993-cü ilin aprel ayında Kəlbəcər işğal altına düşmüşdü və beləliklə, Dağlıq Qarabağla Ermənistan arasında coğrafi əlaqə yarandı. Heydər Əliyev buna heç vaxt imkan verməzdi. Çünki onun siyasəti, onun qətiyyəti, xalqın ona olan inamı heç vaxt imkan verə bilməzdi ki, bizim torpaqlarımız işğal altına düşsün. Dağlıq Qarabağ münaqişəsi və torpaqlarımızın işğalı, bir milyondan artıq qaçqın, köçkünün ağır vəziyyəti AXC-Müsavat cütlüyünün ağır mirasıdır. Bu gün Azərbaycan həm danışıqlar masasında, həm də döyüş meydanında üstün mövqedədir. Biz son illər ərzində münaqişənin həlli üçün güclü hüquqi baza yaratdıq. Dünyanın bir çox mötəbər aparıcı beynəlxalq təşkilatları münaqişə ilə bağlı həqiqəti əks etdirən, bizim mövqeyimizi dəstəkləyən qətnamələr, qərarlar qəbul etmişlər - BMT-nin Baş Assambleyası, ondan əvvəl Təhlükəsizlik Şurası, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, digər təşkilatlar. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq Prioritetləri sənədində ərazi bütövlüyümüz, suverenliyimiz, sərhədlərimizin toxunulmazlığı haqqında dəstək ifadə olunub. Yəni, bu, münaqişə üçün hüquqi baza yaradır. Hüquqi baza ondan ibarətdir ki, Dağlıq Qarabağ, - bunu biz hamımız yaxşı bilirik, - Azərbaycanın ayrılmaz hissəsidir. Münaqişənin həlli yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür".

Prezident İlham Əliyev deyib: "Eyni zamanda, biz güclü iqtisadi potensial yaradaraq güclü ordu da yaratmışıq. Bu gün Azərbaycan Ordusu dünyada güclü ordular sırasındadır. Bizim döyüş qabiliyyətimiz, imkanlarımız artır. Biz ordumuzu ən müasir texnika ilə təchiz edirik. Aprel döyüşləri bizim gücümüzü göstərdi. Ən əlverişsiz hərbi mövqelərdən əks-hücum əməliyyatı apararaq biz strateji yüksəklikləri əldə etdik. Torpaqlarımızı işğalçılardan azad etdik. Bu gün Ağdərə, Füzuli, Cəbrayıl rayonlarında Azərbaycan bayrağı dalğalanır. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir. Mən Lələtəpədə olanda, orada Azərbaycan bayrağını görəndə qürur hissi keçirirəm. Hər bir Azərbaycan vətəndaşı qürur hissi keçirir. Bizim əsgər və zabitlərimiz əsl qəhrəmanlıq göstərmişlər. Aprel döyüşləri tarixi hadisədir. Bu döyüşlər Ermənistanın uzun illər ərzində yaratdığı mifi tamamilə darmadağın etdi. Yəni, ermənilər elə bir rəy formalaşdırmağa çalışırdılar ki, guya onların ordusu güclüdür və yenilməzdir. Azərbaycan əsgəri, zabiti göstərdi ki, kimin ordusu güclüdür, kimin ordusu yenilməzdir. O mif tamamilə dağıdıldı. Aprel döyüşləri milli ruhumuzu yüksəltdi, zirvələrə qaldırdı. Ona görə bu hadisə bir daha onu göstərir ki, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq.

Aprel döyüşlərindən iki il sonra uğurlu Naxçıvan əməliyyatı keçirildi. O, taktiki baxımdan fərqli əməliyyat idi, ancaq nəticə etibarilə çox uğurlu idi və bizə imkan verdi ki, strateji yüksəklikləri, dağları tam nəzarətə götürək və bu dağlardan düşmənin strateji kommunikasiyalarına nəzarət edək. Yəni, bütün bunlar ordumuzun qüdrətini, peşəkarlığını əks etdirən önəmli hadisələrdir. Bütün bunlar onu göstərir ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır".

Müsahibədə ölkə başçısı qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası bizim əsas vəzifəmizdir. "Bildiyiniz kimi, Ermənistanın yeni hökuməti birinci mərhələdə çox ziddiyyətli bəyanatlar verirdi ki, Azərbaycan Ermənistanla yox, qondarma "Dağlıq Qarabağ respublikası" ilə danışıqlar aparmalıdır. Biz, əlbəttə ki, bu ziddiyyətli və anlaşılmaz bəyanatları dərhal rədd etdik. O cümlədən vasitəçilər də əlbəttə ki, belə bir mövqe ilə razılaşa bilməzdilər. Öz prinsipial mövqeyimizdə qalaraq biz danışıqlar prosesinə sadiqik. Bu gün danışıqlar Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında aparılır. Artıq bir neçə raund danışıqlar aparılıb. Biz ümid edirik ki, bu danışıqların nəticəsi olacaqdır. Ona görə danışıqların aparılması əlbəttə ki, müsbət hal kimi qiymətləndirilə bilər. Bu, bir daha onu göstərir ki, Ermənistanın yeni rəhbərliyinin ilk mərhələdə bəyan etdiyi prinsiplər tamamilə qəbuledilməzdir.

Digər tərəfdən, mən həmişə demişəm ki, bu gün dünyada güc amili ön plana çıxır. Baxın, dünyanın müxtəlif yerlərində beynəlxalq hüquq kobudcasına pozulur. Əgər əvvəlki dövrlərdə bunu müəyyən formada gizlətmək istəyirdilərsə, bu gün heç buna ehtiyac da görmürlər. Bu gün dünyada "kim güclüdür, o da haqlıdır" prinsipi hökm sürür. Bu, yeni reallıqdır. Biz bu reallığa hazır olmalıyıq. Dünya dəyişir və biz bu dəyişikliyə hazır olmalıyıq. Xoşbəxtlikdən biz öz iqtisadi və hərbi gücümüzü uzun illərdir ki, artırırıq. Sanki özümüzü bugünkü vəziyyətə hazırlayırdıq və bu gün biz hazırıq. Ona görə güc amili həmişə gündəlikdə olub və olacaq. Biz bunu nəinki bizim münaqişə, bir çox başqa münaqişələrlə bağlı da görürük. Ona görə biz müxtəlif imkanlardan istifadə edəcəyik və Azərbaycanın ərazi bütövlüyünün bərpası bizim əsas vəzifəmizdir. Azərbaycan vətəndaşları bunu bilməlidirlər ki, bu, hər bir vətəndaşın əsas vəzifəsidir, dövlətin əsas vəzifəsidir. Biz bu istiqamət üzrə öz siyasətimizi bundan sonra da aparacağıq".

**"Azərbaycan Ordusu"**

# Hərbçilərimiz beynəlxalq "Qış təlimi-2019"-da iştirak edirlər



*Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları Türkiyə Respublikasında keçirilən beynəlxalq "Qış təlimi-2019" təlimində iştirak edirlər.*

Təlimin ssenarisinə əsasən, hərbçilərimiz sərt iqlim və çətin relyef şəraitində keçirilən antiterror əməliyyatları zamanı döyüş, eləcə də dağlıq ərazilərdə qar uçqununa düşmüş yaralıların aşkar edilərək təxliyəsi elementlərini məşq edirlər.

Türkiyənin Qars şəhərində keçirilən məşqlərlə yanaşı, Kayseri şəhərində paraşütçü komandolarımız da ən çətin tapşırıqları praktiki yerinə yetirirlər.



**Leytenant Nəriman NƏCƏFOV, "N" hərbi hissəsi**

*Ön xətdən reportaj*

# Vətən səcdəgahdır!



Qış səhəridir. Yolumuz ön xətdə xidmət edən əsgərlərimizin yanınadır. Hava çox soyuqdur. Uzaqdan yorğun-yorğun görünən günəşin havanı isitməyə gücü çatmır. Hər nəsnədə qışın şaxtalı nəfəsi hiss olunur. Yolboyu dağları, dərələri, ecazkar təbiəti seyr edirəm. Radioda səslənən qürur dolu fikirlər azca keyimiş, mürgülü xəyallarımı qeyri-ixtiyari özünə çəkir. "... Dənizdə suyunun hər damlasını, yerdə isə torpağının hər qarışını gözünü qırpmadan, ürəyinin çırpıntısı ilə qoruyub, müdafiə edirsən. Qoruyursan ki, biz hər gün işə asanlıqla gedib gələ bilək, evimizdə rahat olaq, el-obamızda sülh içində yaşayaq. Qoruyursan ki, nurani qocalar rahat nəfəs alsınlar. Qoruyursan ki, südəmər körpələr firavan böyüsünlər. Biz sənin haqqını ödəyə bilmərik. Sən bizim məsuliyyətimiz, sən bizim başımız üstündə dalğalanan bayrağımız kimi fəxarət rəmzimizsən. Çünki qədimdən istilalara, zülmə, məşəqqətlərə sinə gərən 100 illik tarixə malik ordunun əsgərisən. Sən müstəqil, firavan, hürr yaşayan azad Azərbaycan əsgərisən." Bu fikirlər elə məğrur-məğrur deyilirdi ki, insan qəlbinə fövqəl hökmranlıq edirdi. Bütün təfsilatı və aydınlığı ilə sözbəsöz bu fikirləri kağıza yazmamaq mümkün deyildi. Həqiqətən, bu gün Azərbaycan Ordusu çox yüksək səviyyədədir. Ordumuz həm peşəkarlıq, həm döyüş qabiliyyəti, həm də mənəvi-psixoloji cəhətdən qabaqcıl ordular sırasındadır. Bizləri sevindirən başlıca cəhətlərdən biri də ordumuzdakı qələbəyə köklənmiş yüksək əhval-ruhiyyədir. Bu, həm də düşmənə gözdağıdır. Ürəyi qisas hissi ilə alışıb yanan, torpaqlarımızı düşməndən azad etmək, şəhidlərimizin qisasını almaq istəyi ilə xidmət edən Azərbaycan əsgəri zərrə qədər şübhə yeri qoymur ki, cəsarət və hünərlə vuruşaraq tezliklə Azərbaycan bayrağını işğal altında olan torpaqlarımızda əzəmətlə dalğalandıracaq.

Cəsur oğullarımızın yanında, səngərdəyəm. Onlar gəlişimdən razılıqlarını ifadə edib, ürək sözlərini mənimlə bölüşürlər. Vətən müdafiəçiləri ilə söhbətdə aldığım zövqü, ruhumun rahatlığını heç yerdə tapa bilmirəm. Müsahiblərimdə olan Vətən sevgisini duyanda, vətənpərvərlik haqqında söylənilən fikirləri eşidəndə özümü xoşbəxt hiss edirəm. Danışmağa söz tapmıram bəzən, düşüncələrinə qulaq asıb kəlmə-kəlmə dəftərçəmə qeyd edirəm. Hamısı oxşar hisslər keçirirlər: Vətən torpağı bizim üçün səcdəgahdır, toxunulmazdır, müqəddəsdir. İlk həmsöhbətim müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elnur Musayevdir. "İnsanın məsləki də, amalı da Vətən sevgisindən başlanır. Dünyada Vətən məhəbbəti qədər müqəddəs, Vətən sevgisi qədər ülvi bir hiss yoxdur. Vətən müstəqillik rəmzidir. Mən Vətənimi bütün qəlbimlə sevirəm və onun uğrunda son damla qanıma qədər vuruşmağa hazıram. Hər kəs ona ayrılan ömür günlərini keçməklə, həyatında ona ayrılan vaxtı yaşayır. Mən həyatımın mənasını Vətənə xidmət etməkdə görürəm. Özümü dərk edəndən hərbçi peşəsinə marağım sonsuz olub. Silahdaşlarımızın,



babalarımızın canı və qanı bahasına qorunan Vətən torpaqlarına keşik çəkməyi özümə müqəddəs borc bilirəm. Çünki Vətən bizlərə layiqincə yaşamaq, son ana qədər onu cəsarətlə qorumaq üçün əmanət edilib. Vətən qarşısında bütün həyatımı, bütün varlığımı borclu sayıram. Bu, təkcə mənim yox, mənim kimi bütün silahdaşlarımın amalıdır. 2016-cı ilin aprel döyüşləri də göstərdi ki, Vətənimiz Azərbaycanda igid oğullar yetərincədir. Vətənin çağırışı, ürəklərinin hökmü ilə döyüşə atılan bu Vətən övladları doğma yurd, doğma torpaq uğrunda canlarından belə keçməyə çəkinmədilər. Ölümün gözünə dik baxan bu qəhrəmanlar şəhidlik zirvəsinə yüksələrək ölməzliyə qovuşdular. Onlar əsl qəhrəmanlıq və rəşadət göstərdilər. Vətənin şərəfi də, şöhrəti də məhz belə oğullar, belə qəhrəmanlardır. Bizlər də hər an Vətənin keşiyindəyik, hər an canımızla, qanımızla onu müdafiə etməyə hazırıq", - deyə çavuş Elnur Musayev bildirir.

Öz fikirlərini bölüşmək üçün əsgər Əbülfəz Mehdiyev söhbətə qoşulur: "Bütün gənclərimiz kimi mən də Vətənimizə, doğma ordumuza rəğbət və sevgi bəsləyirəm. Torpaqlarımızın bütövlüyü uğrunda tökülən qanlar, verilən canlar Vətənə olan sevgimi, bağlılığımı daha da artırır. "Əsgərlik əsl kişilik məktəbidir" fikrilə tam razıyam. Çünki hərbi xidmət mənə müsbət keyfiyyətlər aşıladı. O, keyfiyyətləri ki, mənə mülki həyatda da lazım olacaq. Xidməti dövrümün çox hissəsini geridə qoymuşam. Az müddətdən sonra tərxis olacam. Bu mənim üçün şərəfdir ki, xidmətimi düzgün təşkil edib ailəmin yanına qayıdacam. Əsgərlik illərinin tez bitməsinə sevinmirəm, sevinirəm ki, xidmətim müddətində komandir və əsgər dostlarımın hörmətini qazana bildim. Mən hər zaman Vətənimin əsgəriyəm". Söhbətimizin sonunda təcrübəli əsgər gənc əsgərlərə arzuladı ki, hər zaman nümunəvi xidmətləri ilə seçilsinlər: "Döyüş növbətçisi çıxanda qorxmasınlar, əksinə, nifrətləri daha da artsın. Burada hər kəsi özlərinə dost, qardaş bilsinlər. Çünki bura bir ailədir. Etiraf edim ki, mən artıq indidən gedəcəyimi düşünəndə kədərlənirəm. Onlara ən əsası arzu edirəm ki, Böyük Qələbəni xalqımıza yaşatsınlar".

Növbəti həmsöbətim əsgər Vahid Muradovdur.

- Azərbaycan əsgəri olmaq şərəfdir və daim bu şərəfi doğrultmağa çalışacağam, - Vahid deyir. - Hərbi xidmətə hələ təzə başlamışam. Lakin qısa zamanda çətinlik çəkmədən buradakı mühitə uyğunlaşdım. Hərbi hissəyə gəldiyim ilk gündən özümü ailəmdəki kimi hiss edirəm. Bir sözlə, hərbi hissə bizim ailəmiz kimidir və komandirlərimiz də valideynlərimiz kimi bizim qayğımıza qalırlar. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində gündən-günə güclənən və inkişaf edən ordumuz var. Bu inkişafı mətbuatdan, televiziya və internetdən mütəmadi izləyirdim. Hal-hazırda hərbi xidmətdəyəm və bu inkişafı, uğurları görürəm.



Azərbaycan əsgəri olmaqdan qürur hissi keçirirəm. Komandirlərimizin əmr və tapşırıqlarını vaxtlı-vaxtında və dəqiq yerinə yetirib nizamlı olmağa çalışırıq.

Əsgər Surət Məmmədzadə hərbi xidmətə Şəki rayonundan çağırılıb. - Hərbi xidmətin ən çox sevdiyim cəhətlərindən biri günün nizam qaydasıdır. Mülki həyatda olarkən nə vaxtında qidalanırdıq, nə yatıb-dururduq, nə də ki, idmanla gündəlik məşğul olurduq. Bir sözlə, heç də sağlam həyat tərzi keçirmirdik. Amma hərbi xidmətə gələndən günün nizam qaydasına uyğun olaraq vaxtlı-vaxtında yatmaq, qidalanmaq və gündəlik idmanla məşğul olmaq əsas vərdişlərimizə çevrilib. Hər gün daha da gümrahlaşdığını hiss edirsən. İndi daha güclü və sağlamam. Belə sağlam ruhla xidmət edir, hərbi biliklərə dərindən yiyələnirəm. Vəzifə borclarımı, silahımın sirlərini mükəmməl öyrənirəm. Hər an əsgər yoldaşlarımla Vətən qarşısında borcumu yerinə yetirməyə hazıram, - əsgər S.Məmmədzadə belə deyir.

Əsgər İzzət Həlimov düşməni məhv etməyə hər an hazır olduğunu deyərək, torpaqlarımızı göz bəbəyi kimi qoruduğunu bildirir:

- Döyüş növbəsində ayıq-sayıq dayanır, diqqətimi bir an belə düşməndən ayırmıram. Görməni məhdudlaşdıran çənli havalarda, gecə yarısında daha diqqətli olur, təhlükəli zonalara ciddi nəzarət edirəm. Düşmən atəşkəsi tez-tez pozur, lakin tez bir zamanda onları cavab atəşi ilə susdururuq. Biz onlardan qat-qat güclüyük. Hər kəs əmin olsun ki, burada inamla dayanmışıq. Düşmən bir qarış belə irəli gələ bilməz.

İzzətin sözləri bir daha göstərir ki, ordumuzda Vətənini, xalqını, millətini sevən, torpaqlarının azadlığı uğrunda canından keçən mərd oğullar xidmət edirlər. Vətən sevgisindən, vətənpərvərlikdən güc alan cəsur oğulların hər biri mövqelərimizi inamla qoruyur.

- Əsgəri formanı geyinib sırada dayandığım ilk gündən arzum döyüş postunda xidmət etmək olub. Bunun üçün keçirilən məşğələlərdə daha məsuliyyətli və aktiv olurdum ki, bacarıqlı əsgər kimi formalaşım. Silahımın taktiki-texniki xüsusiyyətlərini, ondan düzgün istifadə etməyi, sərrast atəş açmağı mükəmməl öyrənmişəm. İstənilən an düşməni məhv etməyə hazıram. Əgər döyüş əmri gələrsə, döyüş meydanında şücaət göstərib, düşməni doğma torpaqlarımızdan qovmaq üçün son damla qanıma qədər döyüşəcəyimə əmin ola bilərsiniz, - əsgər Elgiz Cəlilov deyir.

Ön xətdə xidmət edən silahdaşlarımızda bu qətiyyəti görəndə heyrətimi gizlədə bilmirəm. Ürəyi Azərbaycanla döyünən hər kəs inanır ki, ordumuz Ali Baş Komandanımızın "İrəli" əmriylə tezliklə işğal olunan torpaqlarımızı azad edərək, öz uğurları ilə bütün dünyaya səs salacaqlar. Ermənilər üzərindəki Böyük Qələbədən, zəfərdən sonra düşmənin xarabazarlığa çevirdiyi digər yaşayış məntəqələrimizin abadlaşdırılması, məcburi köçkünlərimizin bu abadlaşdırılmış yerlərə köçmələrinə çox qalmayıb. Bu torpaqlar bizimdir, bizim olaraq da qalacaq...

**Leytenant**
**Samir HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** IX əsrdə Azərbaycanda xalq azadlıq hərəkatı. Babək Xürrəminin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu dərsə hazırlaşarkən Azərbaycan tarixinə dair tarixi və digər müvafiq ədəbiyyatdan istifadə etmək və mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**
**1. IX əsrdə Azərbaycanda xalq-azadlıq hərəkatı.**
**2. Babək Xürrəminin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə.**
**3. Xürrəmilər hərəkatının əhəmiyyəti.**

### *IX əsrdə Azərbaycanda xalq-azadlıq hərəkatı*

VII əsrin əvvəllərində Ərəbistan yarımadasında güclü bir feodal dövləti meydana gəldi. Asiyada, Afrikada və Avropada İslam dinini yaymaq siyasəti yeridən ərəblər İranın Rey və Qəzvin şəhərlərini işğal etdikdən sonra 639-cu ildə sərkərdə Hüzeyfənin başçılığı ilə Azərbaycana daxil oldular. Ərəb ordularının fasiləsiz hücumlarına baxmayaraq, əhali onlara asanlıqla boyun əymədi, düşmənə ciddi müqavimət göstərərək, vergi verməkdən və islam dinini qəbul etməkdən imtina etdi. Yalnız 90 illik kəskin mübarizədən sonra xilafət orduları Azərbaycanın istilasını başa çatdıra bildilər. Ərəblər işğal etdikləri ölkələri əvvəllər öz qaydaları əsasında idarə edirdilər. Bu qaydalar isə mümkün qədər çox vergi toplamaqdan və başqa dinə mənsub olanlar arasında islam dinini yaymaqdan ibarət idi.

Xilafətin soyğunçu vergi siyasəti və məmurların özbaşınalığı, dəhşətli istismar və hüquqsuzluq, yerli feodalların mülklərinin və imtiyazlarının məhdudlaşdırılması, güclü ərəbləşdirmə siyasəti və başqa səbəblər əhalinin vəziyyətini ağırlaşdırmaqla yanaşı, ümumxalq qəzəbini coşdururdu.

VIII əsrin ortalarında Əməvilər sülaləsinin siyasətinə qarşı həm xilafət sarayında, həm də onlara tabe olan ölkələrdə kəskin mübarizə gedirdi. Xilafətə qarşı çıxışlar Azərbaycanda 748-752-ci illərdə geniş vüsət aldı. Üsyanda əhalinin bütün təbəqələri iştirak edirdilər və onlara yerli feodallar başçılıq edirdilər. Bu, səbəbsiz deyildi. Ərəblər Azərbaycanda möhkəmləndikcə yerli feodalları dövlət aparatından uzaqlaşdırır, onların torpaqlarını, kəndlilər üzərindəki hüquqlarını və digər imtiyazlarını məhdudlaşdırırdılar. Ona görə də feodallar xilafətdən daha çox narazı idilər.

Ərəblərə qarşı 748-ci ildə Beyləqanda başlamış ilk üsyan tezliklə digər vilayətləri, xüsusilə Bərdəni və Ərdəbili əhatə etdi. Xalq hərəkatı Azərbaycanın digər əyalətlərini və bütün Ön Qafqazı bürüdü. 752-ci ildə üsyan amansızlıqla yatırıldı.

Azərbaycanda ərəb xilafətinə qarşı azadlıq mübarizəsinin parlaq səhifələrindən biri xürrəmilər hərəkatıdır. Xürrəmilərin şüarı torpağı və digər istehsal vasitələrini xalqın ixtiyarına verməkdən, kəndliləri və sənətkarları feodalların və digər hakim təbəqələrin asılılığından azad etməkdən ibarət idi.

### *Babək Xürrəminin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə*

Tarixi mənbələrin məlumatına görə, xürrəmilərin ərəblərə qarşı azadlıq mübarizəsi 61 il davam etmişdir. Onun üçdə iki hissəsini Babəkə qədərki dövr təşkil edir. Bu mübarizənin xeyli hissəsinə Bəzz qalasının sahibi Cavidan rəhbərlik etmişdir. 816-cı ildə yerli feodal Əbu İmranla döyüşdə Cavidan ağır yaralanaraq aldığı yaradan öldü. Cavidanın ölümündən sonra xürrəmilərin hərəkatına onun köməkçisi Babək rəhbərlik edir. Əsrlərdən bəri adı qəhrəmanlıq rəmzinə çevrilmiş Babək öz zəmanəsinin cəsur sərkərdəsi və görkəmli siyasi xadimi idi. Babək 798-ci ildə (bəzi mənbələrə görə 795-ci ildə) Ərdəbil yaxınlığında Bilalabad kəndində anadan olmuşdur. Babək gənc yaşlarında bir neçə il çobanlıq etmiş, iki il Təbrizdə sənətkar yanında şagird olmuş, sonra Cavidanla rastlaşıb xürrəmilərin paytaxtı Bəzzə getmişdi.

Xürrəmilər Babəkə qədər xilafətə qarşı iki dəfə - 778 və 808-ci illərdə üsyan etmişlər. Daha güclü olan ikinci üsyanda on minlərlə adam iştirak edirdi. Ərəb sərkərdəsi Abdulla ibn Malikin başçılığı ilə xürrəmilərə qarşı on min atlı göndərildi. Üsyan amansızlıqla yatırıldı, üsyançıların çoxu öldürüldü, əsir alınmış kişiləri xəlifə Harun ər-Rəşidin göstərişi ilə öldürdülər, qadın və uşaqları isə qul kimi satdılar.

Lakin xilafətin amansız cəza tədbirləri xürrəmilərin azadlıq uğrunda mübarizə əzmini məhv edə bilmədi. Onların sırası seyrəlsə də, düşmənə qarşı döyüş təcrübələri zənginləşdi.

Babək xürrəmilər icmasında rəhbərliyi qəbul edən zaman onun tərəfdarlarının miqdarı kifayət qədər çox deyildi. O, xürrəmilərə silah paylayıb göstəriş verdikdən sonra əlverişli məqam çatana kimi gözləmələrini tapşırdı. Həmin müddətdə Babək öz adamlarını Azərbaycanın hər tərəfinə göndərərək ölkəni xilas etmək üçün onları ərəblərə qarşı azadlıq mübarizəsinə çağırdı. Ölkənin hər tərəfindən minlərlə insan Babəkin bayrağı altında toplandı. Bəzi mənbələrə görə, Babəkin ordusunda təkcə atlılar 20 min nəfər idi. Babək orduda ciddi intizam yaratmışdı.

Azadlıq ordusunun əsas hərəkətverici qüvvəsini kəndlilər təşkil etsə də, orada şəhər yoxsulları, sənətkarlar, orta və xırda feodallar, əhalinin müxtəlif təbəqələrinə mənsub adamlar da az deyildi.

Xürrəmilər xilafət orduları üzərində parlaq qələbələr çalaraq Azərbaycanı onlardan təmizlədikcə azadlıq mübarizəsinə qoşulanların sayı artırdı. Ərəb tarixçisi Bağdadın verdiyi məlumata görə, Azərbaycanın cənubunda Babək tərəfdarlarının sayı 300 min nəfərə çatırdı.

İşğalçılara qarşı kəskin narazılıq və müqavimət bir çox əraziləri bürüsə də, bütün mənbələr təsdiq edir ki, azadlıq mübarizəsinin əsas mənbəyi Babəkin və xürrəmilərin vətəni Azərbaycan idi.

IX əsrin 30-cu illərinin əvvəlləri azadlıq mübarizəsinin ən uğurlu dövrü idi. Üsyançılar xilafəti lərzəyə salmışdılar. Ərəb tarixçisi Dinəverinin məlumatına görə, bu zaman "Babəkin işi böyük vüsət aldı və ərəblər ondan qorxmağa başladılar. Onunla vuruşurdular, lakin qalib gələ bilmirdilər. Babək qoşunları dağıdır və sərkərdələri öldürürdü."

835-ci ildə xəlifə Mötəsim məşhur sərkərdə Afşin Heydər ibn Kavusu xürrəmilərə qarşı döyüşən ərəb ordusunun baş komandanı təyin etdi. Ərəblərin xürrəmilərə qarşı mübarizə taktikasını dəyişən Afşin Babəkin tərəfdarları və müttəfiqləri olan yerli feodallar Səhl ibn Sumbatı, ibn Bəisi, Əbu Musanı və onlarla başqalarını öz tərəfinə çəkdi. Xəyanət nəticəsində Babəkin cəsur sərkərdəsi İsma əsir alındı, 836-cı ildə isə daha bir sərkərdə - Tərxan öz evində öldürüldü.

Azadlıq müharibəsinin ilk dövründə, üsyan sürətlə genişləndiyi şəraitdə mübarizəyə qoşulan, onları silahla, ərzaqla, pulla təmin edən yerli feodallar hərəkatın müəyyən məqamında mülk və imtiyazlarını itirəcəklərini güman edərək mübarizədən uzaqlaşdılar. Bununla belə, təcrübəli sərkərdə olan Babək ağıllı taktika ilə düşmənin planlarını pozur və onları çıxılmaz vəziyyətə salırdı.

Ərəb sərkərdəsi Afşin Babəkə sülh danışığına başlamağı təklif edərək onu inandırmağa çalışırdı ki, bağışlanması haqqında xəlifədən fərman alacaq. Lakin Babək əqidəsindən dönmədi. O, vətənin istiqlaliyyətini şəxsi xoşbəxtliyinə qurban vermədi. Xəlifənin təklif etdiyi imtiyazları və hədiyyələri xalqına xəyanət kimi qiymətləndirdi.

Belə olduqda həlledici döyüş labüd idi. Daha yaxşı silahlanmış və təchiz olunmuş ərəblər əlverişli vaxtda Babəkin ordusu üzərinə hücum etdilər. 837-ci il avqustun 26-da son döyüş başlandı. Bəzz qalasını hər tərəfdən mühasirəyə alan ərəblər qala divarlarını dağıtmaq üçün daş atan mancanaqlardan və neftlə isladılmış oxlardan da bacarıqla istifadə edirdilər. Qalanın müdafiəsinə Babəkin etibarlı və cəsur sərkərdəsi Adin başçılıq edirdi. Bütün günü davam edən qanlı döyüşdə düşmən əsgərlərindən dəfələrlə az olmalarına baxmayaraq, xürrəmilər misilsiz rəşadət göstərirdilər. Onların qeyri-adi mətanəti və igidliyi ərəbləri heyrətə gətirirdi. Vətənin cəngavər oğulları müqəddəs torpağımız uğrunda şəhid olmağı şərəf sayırdılar. Bəzz döyüşü orta əsrlər müharibələri tarixində ən çox insan qırğınına səbəb olan döyüşlərdəndir. Bu döyüşdə yaralananlardan və itkin düşənlərdən əlavə ərəblərdən 100 min nəfər, üsyançılardan 80 min nəfər həlak olmuşdu. Afşinin göstərişi ilə Bəzz qalası dağıdıldı. Qala müdafiəçilərindən 7600 nəfər əsir götürüldü.

Bəzzin süqutundan sonra Babək qardaşı Abdulla ilə birlikdə köhnə müttəfiqi Səhl ibn Sumbat tərəfindən xəyanət yolu ilə tutularaq ərəblərə təhvil verildi. 838-ci il martın 14-də xəlifə Mötəsimin hökmü ilə Babək Samirə şəhərində edam edildi.

Edam zamanı Babək heyrətamiz mənəvi dözüm göstərdi. Cəllad əvvəlcə onun sağ əlini biləkdən kəsdi. Qan axanda Babək sol əli ilə üzünü qana boyadı. Xəlifə ondan nə üçün belə etdiyini soruşanda Babək bildirdi: "Adamlar elə başa düşərlər ki, mən elə əvvəldən ölümdən qorxmuşam. Mən üzümü qana boyadım ki, bənizim solğun görünməsin".

### *Xürrəmilər hərəkatının əhəmiyyəti*

Müvəffəqiyyətsizliklə nəticələnməsinə baxmayaraq, Babək hərəkatı bütün xilafəti lərzəyə salmış, Şərqdə ərəb hökmranlığına ağır zərbə vurmuşdu. Babək hərəkatı dövründə xilafətin təqribən 500 min əsgəri məhv edilmişdi. Xilafətin əsasını sarsıdan və onun dağılmasını xeyli sürətləndirən Babək hərəkatı qonşu xalqların azadlıq mübarizəsini xeyli yüngülləşdirdi və onların ərəb əsarətindən azad olmasını asanlaşdırdı. Xürrəmilərin məğlubiyyəti və Babəkin edamı Azərbaycanda, eləcə də xilafətin digər vilayətlərində ərəblərə qarşı mübarizəni dayandırmadı. 838-39-cu illərdə Təbəristanda Məzyarın başçılığı ilə üsyan başlandı. Üsyançılar xürrəmilərin şüarları ilə çıxış edirdilər. Babək hərəkatının məğlubiyyətindən sonra Sasunda, Arranda (Əbu Musanın başçılığı ilə) xilafət əleyhinə yeni üsyanlar baş verdi.

Orta əsrlərdə baş verən digər kəndli müharibələrindən fərqli olaraq bu müharibə hər şeydən öncə istiqlaliyyət uğrunda azadlıq müharibəsi idi. Mübarizədə xalqın imtiyazlı təbəqəsinin dönüklüyü, ərəblərə nisbətən daha cəsur və döyüşkən türk sərkərdələrinin eyni və digər mənşəli üsyançılara səfərbəriyə alınması, ən başlıcası ermənilərin xəyanəti və ərəblərə köməklik etməsi azadlıq müharibəsinin məğlubiyyətlə nəticələnməsinə səbəb oldu. Ağır məğlubiyyətə baxmayaraq, xürrəmilər hərəkatı digər asılı xalqların azadlıq mübarizəsinə təkan verməklə yanaşı, Azərbaycanda xalqın şüurunda və əməlində əsrlərlə yaşadı. Üsyançılar və onların rəhbəri Babəkə nifrət hissi bəsləmələrinə baxmayaraq, hərəkatın təsirini və əzəmətini ərəb tarixçiləri də etiraf etmişlər. İbn Təğriberdi adlı tarixçi yazırdı ki, "Babək öz zəmanəsinin qəhrəmanı və xilafəti dəhşətə gətirən bir igiddir".

***Qeyd:*** *Bu mövzunu öyrənərkən bir daha qeyd olunmalıdır ki, Azərbaycan torpaqlarının bir hissəsi hələ də ermənilərin işğalı altındadır. Azərbaycanın müstəqilliyinin bərpa olunmasının ilk illərində ölkədə olan mürəkkəb daxili ictimai-siyasi vəziyyətdən məharətlə istifadə edən ermənilər bəzi xarici dövlətlərin dəstəyi ilə Azərbaycanın əzəli torpaqları olan Qarabağın dağlıq hissəsini və daha 7 rayonu işğal etməyə müvəffəq oldular. Ona görə də bu gün Azərbaycan Ordusunun qarşısında duran ən başlıca vəzifə Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün həmişə döyüşə hazır olmaqdır. Azərbaycan Ordusunun hərbi qulluqçusu dərslərdə və təlimlərdə hərb işini vicdanla öyrənməklə yanaşı, öz xalqının qəhrəmanlıq tarixini də bilməli, onlarla fəxr etməli və Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə babaların şöhrətli döyüş ənənələrinə yüksək sədaqət nümunəsi göstərməyə hazır olmalıdır.*

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

# Xatirə turnirinin qalibləri mükafatlandırıldı

*Kursantların hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi məqsədi ilə müntəzəm olaraq Cəmşid Naxçıvanski adına Hərbi Liseydə Azərbaycanın Milli qəhrəmanlarının xatirəsinə ehtiram əlaməti olaraq bölüklər arasında müxtəlif idman yarışları keçirilir. Sabahımızın zabitləri olacaq kursantlar bu yarışlarda çox fəal iştirak edərək güc və bacarıqlarını sınaqdan çıxarırlar. Azərbaycanın Milli qəhrəmanları Elşad Əhədovun və Mətləb Quliyevin xatirələrinə həsr olunmuş şahmat, voleybol turnirləri hamının dərin marağına səbəb oldu. Gərgin keçən bu yarışlar kursantların yaddaşında dərin iz saldı.*





Birinciliklərin nəticələri elan olunanda məlum oldu ki, Azərbaycanın Milli Qəhrəmanı Elşad Əhədovun xatirəsinə həsr olunmuş şahmat turnirində daha yaxşı oyun nümayiş etdirən 5-ci bölüyün kursantları birinci pilləyə yüksəliblər. İkinci yerə isə 6-cı bölüyün kursantları çıxıblar. Dördüncü bölüyün kursantlarının isə 3-cü yeri tutmağa gücləri çatıb.

Azərbaycanın Milli Qəhrəmanı Mətləb Quliyevin xatirəsinə həsr olunmuş voleybol birinciliyi də olduqca maraqlı anlarla yadda qalıb. Gərgin mübarizə şəraitində keçən yarışda daha hazırlıqlı olan 6-cı bölüyün kursantları birinci pilləyə çıxmağı bacarıblar. İkinci yerdə 1-ci bölüyün kursantları qərarlaşıb. Dördüncü bölüyün kursantları isə 3-cü pilləni tutmaqla kifayətləniblər.

C.Naxçıvanski adına Hərbi Liseyin rəhbərliyi yarışın qaliblərini mükafatlandırdı. Mükafatlandırma mərasimində çıxış edən polkovnik Elman Namazov qalibləri təbrik etdikdən sonra dedi:

- Hər birinizə minnətdarlıq edirəm ki, Azərbaycanın Milli qəhrəmanlarının xatirəsinə həsr olunmuş yarışlarda fəallıq göstərdiniz. Yorulmadan, qələbə naminə gərgin mübarizə apardınız. Bir daha gördünüz ki, həyatda mübarizə aparmadan məqsədə çatmaq mümkün deyil. Bu yarışlar qəhrəmanlarımızın xatirəsinə həsr olunmuşdu. Siz bu birincilikdə fəal iştirak etməyinizlə onların ruhuna böyük ehtiram göstərdiniz. İnanıram ki, Hərbi liseydə təhsil aldığınız illər daim yaddaşınızda qalacaq. İştirakçısı olduğunuz bu yarışları həmişə xoş təəssüratlarla xatırlayacaqsınız.

Çıxış və təbriklər başa çatdıqdan sonra qaliblərə fəxri fərman, medal və kuboklar təqdim olundu.

Yarışın qalibi olmuş kursantların üzündən sevinc və fərəh yağırdı. İnanırıq ki, bu sevinc və fərəh heç vaxt onların üzündən əskik olmayacaq.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

## Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində qeyri-döyüş itkilərinin sayı artmaqdadır.

Ağdərə ərazisində xidmət edən düşmən ordusunun əsgəri Sos Mekumyan, zabitin şəxsi həyətində işləyərkən ağacdan yıxılıb. Ağacların quru budaqlarını kəsməklə məşğul olan, 1995-ci il təvəllüdlü hərbi qulluqçu çoxlu sayda sınıqlarla xəstəxanaya aparılıb.

Bölmə növbətçisi Barxudaryanın bildirdiyinə görə komandiri əsgərin xəsarət almasını hüquq-mühafizə orqanlarından gizlətmək məqsədilə onun müalicəsini öz evində davam etdirir .

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində nizamnamədənkənar münasibətlər zəmnində cinayətlərin sayı çoxalmaqda davam edir.

Qeyri-döyüş şəraitində ağır xəsarət alan erməni əsgəri Norayr Malkosyan Yerevanın "Kanaz" adlandırılan qarnizon hərbi hospitalına aparılıb. Əsgər özünə gəldikdən sonra müstəntiqlər onunla söhbət edə biliblər. Onun izahatından məlum olub ki, hərbi qulluqçu xidmət yoldaşları tərəfindən vəhşicəsinə döyülüb.

Hadisə ilə bağlı hərbi qulluqçular - Arman Gazaryan, Aren Yeğizaryan, Davit Lalayan və Zorik Antonyan istintaqa cəlb olunublar.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Hərbi vətənpərvərlik mövzusunda keçirilən müsabiqəyə yekun vurulub



*Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə Gəncə və Naftalan şəhərləri, Göygöl, Daşkəsən, Goranboy, Bərdə, Gədəbəy, Tərtər, Xocavənd, Ağcabədi, Tovuz, Beyləqan, Şəmkir, Ağstafa və Qazax rayonlarının nümayəndələrinin iştirakı ilə keçirilən musiqi müsabiqəsinə yekun vurulub.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müsabiqədə 264 nəfər hərbi qulluqçu və mülki gənclərimiz iştirak edib. Musiqi yarışının final mərhələsinə 37 iştirakçı yüksəlib. Qalib adı uğrunda mübarizə aparan iştirakçıların www.vetenugrunda.az saytında səsverməsi həyata keçirilib. Ümumilikdə səsvermədə 600 minə yaxın şəxs iştirak edib.

İştirakçılar müsabiqənin şərtlərinə uyğun olaraq vokal, rəqs, musiqi alətləri və bədii qiraət üzrə çıxışlar ediblər. Münsiflər heyəti tərəfindən əsasən musiqi alətlərində fərqli ifaya, səhnə davranışına üstünlük verilib.

Musiqi müsabiqəsi hərbi qulluqçuları və istedadlı gəncləri bir araya toplayaraq milli mədəniyyətin inçəsənətin yaşamasına dəstək, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi və yaradıcılıq bacarıqlarının inkişaf etdirilməsi, hərbi hissələrdə bədii özfəaliyyət kollektivlərinin nümayişi ilə yanaşı, xalq və ordu arasında əlaqələrin daha da möhkəmlənməsi məqsədi ilə keçirilib.

İnternet səsverməsinin nəticələrinə görə musiqi müsabiqəsi iştirakçıları arasında qaliblər müəyyən edilib.

# Xəbərlər:
## hadisələr, faktlar

### Türkiyə Əbu-Dabi şəhərində keçiriləcək "IDEX-2019" sərgisində iştirak edəcək



Türkiyə Birləşmiş Ərəb Əmirliklərinin Əbu-Dabi şəhərindəki Milli Sərgi Mərkəzində təşkil olunacaq 14-cü Beynəlxalq konfrans və "IDEX-2019" müdafiə sənayesi sərgisində təmsil olunacaq. Fevralın 17-dən başlayıb 4 gün davam edəcək tədbirdə Türkiyə şirkətlərini Müdafiə Sənayesi Təşkilatı koordinasiya edəcək. Türkiyə sərgidə 23 şirkətlə təmsil olunacaq.

Qeyd edək ki, iki ildən bir keçirilən sərgi və konfrans müdafiə sənayesi məhsulları istehsalçıları və istehlakçılar üçün çox cəlbedici məkandır. "IDEX-2017" sərgisində dünyanın 57 ölkəsindən 1235 şirkət iştirak edib.

### Polşa ABŞ-dan yeni raket sistemləri alacaq



Polşa ABŞ-dan yüksək mobillik xüsusiyyətinə malik yeni nəsil raket sistemləri alacaq.

ABŞ-nın vitse-prezidenti Mayk Pens və Polşa prezidenti Anjey Duda tərəfindən imzalanan razılaşmaya görə Avropa ölkəsi 414 milyon dəyərində HİMARS raket sistemi əldə edəcək. Bu raketlərin maksimal uçuş məsafəsi 300 kilometrdir.

İmzalanma mərasimindən sonra çıxış edən Anjey Duda bildirib ki, bu sövdələşmə Polşa ilə bərabər bütün Şərqi Avropanın müdafiə potensialının yüksəlməsinə səbəb olacaq.

### Yəməndə hərbi texnikanın partladılması nəticəsində 3 əsgər həlak olub



Birləşmiş Ərəb Əmirlikləri-nin dəstəklədiyi və Yəməndə husi üsyançılarına qarşı döyüşən "ərəb koalisiyasına" məxsus hərbi texnikanın partladılması nəticəsində 3 yəmənli əsgər həlak olub.

Yəmənin Abyan əyalətində yerləşən hərbi bazadan əyalətin paytaxtı Zənzibara gedən hərbçilərə qarşı terrorçular tərəfindən bombalı hücum olub. İnsident nəticəsində bir neçə əsgərin də yaralandığı bildirilir. Yəmən ordusundan əlavə ediblər ki, hərbçilər "Əl-Qaidə" terror təşkilatının üzvlərinin bu şəhərdəki sığınacaqlarını aşkar etmək üçün göndəriliblər.

### İran ordusu yeni raketdaşıyan qayıqla təchiz olunub



İslam inqilabının 40-cı ildönümü münasibətilə İran ordusunun istifadəsinə yeni istehsal olunan raketdaşıyan qayıq verilib.

Kompakt şəkildə olan qayıq "Zəfər" və "Nasir" tipli raketlərlə təchiz ediləcək. Bu raketlər dənizdə 80 kilometr məsafədəki hədəfləri dəqiq vurmaq imkanına malikdir.

### Brüsseldə Qara dəniz hövzəsində təhlükəsizlik məsələləri müzakirə olunub



Gürcüstanın Müdafiə naziri Levan İzoriya Brüsselə səfəri çərçivəsində NATO-nun baş katibi Yens Stoltenberq və onun müavini Rouz Qettemyuller ilə görüşüb.

Gürcüstan Müdafiə Nazirliyi bildirib ki, görüşlərdə Gürcüstanın NATO-ya inteqrasiyası, regional və beynəlxalq əməkdaşlıq, Qara dəniz hövzəsində təhlükəsizlik məsələləri diqqət mərkəzində olub.

Qara dəniz hövzəsində təhlükəsizliyin təmin olunmasında Gürcüstanın rolu, mart ayında keçiriləcək "NATO-GEO EXERCISE - 2019" hərbi təlimləri və nəzərdə tutulan yüksək səviyyəli səfərlərlə bağlı fikir mübadiləsi aparılıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Döyüşən sətirlər*

# Sükuta əbədi təsəlli



*70-ci illər Azərbaycan poeziyasında özünəməxsus bədii təfəkkürü, hadisə və predmetlərə yanaşma tərzi ilə seçildi, yeni bədii təsvir vasitələriylə xarakterik olan şeirləriylə poetik cərəyan yaradanlardan biri kimi sevildi İsa İsmayılzadə.*

*Uşaqlığı, yeniyetməliyi Böyük Vətən müharibəsinin sıxıntılarıyla keçən istedadlı şairin şeirləri o illərin poetik təsviridi sanki. Həm də duyğusallıqla ifadə edilmiş təsviri. "Kəndimiz davadan uzaq olsa da, Dava kəndimizin içindən keçib", - misraları müharibə kəlməsinin ifadə etdiyi məzmunu tam ifadə edir - müharibə ağrı-acıdı, müharibə ölüm-itimdi, müharibə "qara kağız"dı, müharibə yollardan üzülməyən baxışlardı, ... İsa İsmayılzadə bunları şeirin imkanları həddində böyük vətəndaş ağrı-acısıyla ifadə edib...*

*Müharibədə toyların necə olduğunu İsa İsmayılzadənin şeiri deyir. Milli mentalitetin poetik ifadəsidi bu şeir. Toy şadlıq, şadyanalıqdı. Kəndə "qara kağız" gəlibsə, o şadlıq, şadyanalıq anaların ağılarından, uşaqların yetimliyindən "utanır", belə demək mümkündürsə, "səsini udur".*

*Bu şeirlərin "Azərbaycan Ordusu" qəzetinin oxucuları üçün də düşündürücü olacağını güman edirik.*

**"Azərbaycan Ordusu"**

### Güllələr demədi

Getdilər... Getdilər fit çala-çala,
getdilər atları çimizdirməyə -
bizi aparmadılar.
Qulançar yığmağa, moruq dərməyə
bizi aparmadılar.

Yalvarıb-yaxarıb dil tökəndə biz
Onlar üstümüzə od elədilər,
qışqırıb-təpinib hədələdilər:
"Hələ uşaqsınız nə yaşınız var..."

Bir gün xəbər gəldi: dava başlanıb...
Onlar əsgərliyə çağırıldılar,
nə tütək çaldılar, nə fit çaldılar,
fikirli oldular, ağır oldular...

Yola salanlara qoşulanda biz
yalvarıb-yaxarıb dil tökdü onlar:
"Qayıdın... qayıdın, geri qayıdın,
qayıdın atları çimizdirməyə,
qulançar yığmağa, moruq dərməyə..."

Biz getdik atları çimizdirməyə,
qulançar yığmağa, moruq yeməyə.
Düşüb arxamızca gəldi uşaqlar,
dilimiz gəlmədi bir söz deməyə...

Onların yoxluğu düşdü araya,
oyunlar, məclislər qaldı yarımçıq.
Toylar da seyrəldi, toyxanalar da,
aşıq da havanı çaldı yarımçıq.

Kəndimiz yamanca uralanmışdı,
yaman korun-korun yanırdı ocaq.
Bir ağzıgöyçək də qaralanmışdı;
"Deyəsən gedənlər qayıtmayacaq..."

Mərmilər, güllələr fit çala-çala
cuvar Cavad kimi qovdu onları.
Kətmən vura-vura, ot çala-çala
baxdıq yollara...

Getdilər, getdilər Berlinə sarı,
getdilər... getdilər ölümə sarı...
Qəlpələr demədi, geri qayıdın,
lülələr demədi: geri qayıdın,
güllələr demədi geri qayıdın,
hələ uşaqsınız, nə yaşınız var...

### Heykəl yetim qaldı

Son gecə... Son nəfəs... Sonuncu görüş...
İntizar baxışlar sorğu-suallı.
İlişdi hardasa, qaldı hardasa,
Qırıldı ananın sınıqın xəyalı.
Yumdu gözlərini...

Elə bu dəmdə
Ehmalca-ehmalca qapını açdı,
Gəldi heykəl oğlu hərbi geyimdə.
Düşüb pyedestaldan... gəldi yanına,
Öpdü gözlərindən, ağ saçlarından.

Ananın kədərli titrək əlləri
Gəzdi qarış-qarış...
Toxundu oğlunun soyuq alnına,
Soyuq sinəsinə, tunc paqonuna...

Heykəl nəfəs aldı... köks ötürdü o.
Çıxardı əynindən tunc paltarını...
İstədi bir kəlmə söz desin ana -
Saxlaya bilmədi göz yaşlarını
Uzaq bir mənzilə yol gedirdi o...

Heykəl ağlayırdı... ana susurdu...
Dünya da susurdu... Sonsuz bir sükut.
Bir tabut qalxırdı Yer kürəsindən -
Heykəlin çiynində gedirdi tabut...

Heykəl yetim qaldı... anasız qaldı...
O gecə... o gecə səhərə kimi
Heykəl yuxu gördü -
Dilindən düşmədi ananın adı...

### Səssiz toylar

Mən təzəcə dil açmışdım... o yanda
İnildədi, gümüldəndi balaban.
Kəndimizin səssiz-küysüz toyunda
Həzin-həzin yenə dindi balaban.

Divardakı telli saz da o gecə
Köynəyini tənbəl-tənbəl çıxardı.
Aşıq Sadıq köks ötürdü gizlicə,
Qəhərləndi, bir bayatı çağırdı...

Yavaş-yavaş əriyirdi kölgətək
"Otuzluğun" öləziyən işığı.
Döyüşlərdən nigarandı, nigaran -
Yorğun gözlər zillənsə də aşığa.

Yavaş-yavaş dilə gəldi qarmon da,
Dəf çubuğu enib-qalxdı astaca.
Ağbirçəklər durub əli qoynunda,
Nisgilini gözlərində gizlədib -
Üzündəki qırışları kim açar?..

"Qara kağız" yol gəlirdi uzaqdan,
Astananı kəsdirəcək yenə də.
Burda səssiz toy çalınır bayaqdan,
Ev yiyəsi fikirlidir dünəndən.

Bir səs gəldi: "Güləşhəngi" çalınsın.
Topal Həsən yaxasını açaraq,
Dövrə vurub ortalıqda qalmışdı.
Bir səs gəldi: "Asta çalın, ay uşaq..."
Yenə kimsə qara xəbər almışdı...

"Bəy" atası vurnuxurdu o yanda,
Ürəyinə nəsə damdı, pərt oldu...
Səssiz toylar yada düşdü... Bir anda
Səssizlikdən qulaqlarım tutuldu.

### Böyüdülmüş şəkillər

Evə gəldi oğulların nənələri, anaları.
Sandıqlara əl atdılar -
Ələk-vələk elədilər.
Taxçalara, boğçalara əl atdılar -
Ələk-vələk elədilər...
Yaddaşlara əl atdılar -
Ələk-vələk elədilər...
Farmaşlara əl atdılar,
Yaddaşlara əl atdılar -
Ələk-vələk elədilər...

O yadigar müştüyə bax -
Həsrət kimi sapsarıdır.
Babalardan qalıb bəlkə...
O yadigar kağıza bax -
Qat yerindən şırım-şırım,
Göz yaşından ləkə-ləkə...

O yadigar saata bax -
"Qara kağız" gələn gündən
Qurulmayıb, yatır hələ,
Yatasıdır illərlə...
O illərin şəkilləri
Yavaş-yavaş çıxdı üzə.
Şəkil-qardaş, şəkil-ata, şəkil-baba

Analarla, nənələrlə
Dayandılar göz-gözə...
"Şəkil-qardaş,
Bir zamanlar oğul toyu
Bu dağları silkələdi -
Guppultunu eşitmədin..."

"Şəkil-ata,
Nəvə əli bağçanızda
Çıtraq-çıtraq budaqları silkələdi -
Tappıltını eşitmədin..."

"Şəkil-baba,
30 ildir 21 yaşındasan -
Heç bu yaşda baba olar? -
İnanmayır bu el-oba..."

Toz basmışdı, qat kəsmişdi şəkilləri.
Qat kəsmişdi baxışları, yanaqları,
kəkilləri...
Şırım-şırım şırımlanan
Alınlarda vaxt qırışı,
Yanaqlarda, baxışlarda
Vaxt qırışı...
Elə bil ki, bu illəri
Özlərinin yerinə yaşamışdı şəkilləri;
Şəkil-ata yaşamışdı
Oğul toyu həsrətində,
Şəkil-qardaş yaşamışdı
Bacı səsi həsrətində,
Şəkil-baba yaşamışdı
Nəvə boyu həsrətində.
Elə bil ki,
Yaşamışdı, yaşamışdı,
Yaşa dolub qocalmışdı şəkillər,
Yuxu kimi gəlib-keçən illərdən
Şırımları, qırışları
"Bac" almışdı şəkillər...

# İdman

## Azərbaycan taekvondoçuları Antalyada "Prezident kuboku" yarışında dörd medal qazanıblar



Azərbaycanın böyüklərdən ibarət taekvondo üzrə milli komandasının dörd idmançısı Türkiyədə təşkil edilən "Prezident kuboku" yarışında medal qazanıb.

Milli komandamızın üzvləri fevralın 11-də Antalyada start götürən Dünya Taekvondo Federasiyasının G2 kateqoriyalı yarışında mübarizə aparıblar. Avropa qitəsində sayca 4-cü dəfə keçirilən turnirin sonuncu günündə 4 kişi taekvondoçumuz mükafatçılar sırasında yer alıb.

Belə ki, dayanq üzərinə çıxan Milad Beigi Hərçeqani (80 kq) yalnız həlledici görüşdə məğlub olaraq yarışı gümüş medalla başa vurub. Təmsilçilərimizdən Qaşım Maqomedov (58 kq), Ramin Əzizov (87 kq) və Radik İsayev (87 kq-dan yuxarı) yarımfinalda uduzaraq turnirdə bürünc medalla kifayətləniblər.

## Üzgüçülərimiz "Edirne 1st Swimming International Open Cup 2019" turnirində uğurla çıxış ediblər



Türkiyənin Edirne şəhərində üzgüçülük üzrə "Edirne 1st Swimming International Open Cup 2019" turniri keçirilib.

Yarışda milli komandamızın yeniyetmə və gənc idmançıları uğurla iştirak ediblər.

Turnirdə ölkəmiz milli komandamızın baş məşqçisi Rəşad Əbdürəhmanov, məşqçi Rəşad Əliyevin rəhbərliyi altında 9 idmançı ilə təmsil olunub. Üzgüçülərimizin hamısı yarışda öz şəxsi göstəricilərini yaxşılaşdıraraq yüksək nəticələr əldə ediblər.

Ramil Vəlizadə 200 metr məsafəyə batterflay üsulla yarışda "C" finalında iştirak edərək qızıl medal qazanıb. Vəli İsrafilov 200 metr məsafəyə brass üsulla mübarizədə "A" finalında böyüklər arasında beşinci, gənclər arasında isə ikinci olub. İdmançımız, həmçinin 100 metr məsafəyə brass üsulla üzgüçülükdə böyüklər arasında 7-ci, gənclər arasında isə üçüncü olaraq bürünc medala sahib olub.

## Həndbol üzrə Azərbaycan çempionatında növbəti qarşılaşma keçirilib

Həndbol üzrə ölkə çempionatında növbəti görüş keçirilib.

"ABU Arena"da baş tutan qadınların mübarizəsində "Qarabağ" və "Gənclər Birliyi" komandaları üz-üzə gəliblər.

Qarşılaşma "Qarabağ"ın 35:20 hesablı qələbəsi ilə başa çatıb.

## Paralimpiyaçılarımız dünya kuboku yarışlarında daha bir medal qazanıblar

Milli Paralimpiya komandamızın üzvləri Birləşmiş Ərəb Əmirliklərində pauerliftinq üzrə dünya kuboku yarışlarında iştiraklarını davam etdirirlər.

107 kiloqram və yuxarı çəki dərəcəsində çıxış edən idmançımız Şamo Aslanov 206 kiloqram nəticə ilə üçüncü olub.

Qeyd edək ki, yarışın ilk günündə 49 kiloqram çəki dərəcəsində mübarizə aparan Azərbaycan yığmasının üzvü Pərvin Məmmədov gümüş medal qazanıb.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Məmmədov Samil Cəmşid oğluna 2008-ci ildə, gizir Ramazanov Şəfa Rafiq oğluna 2012-ci ildə verilmiş gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 145
Nüsxə 3950